Dövlət Gömrük Komitəsi yanında İctimai Şuranın iclası keçirilib



Dövlət Gömrük Komitəsi yanında İctimai Şuranın onlayn formatda iclası keçirilib.

İclasda İctimai Şuranın reqlamenti, 2026-cı il üzrə Fəaliyyət Planı, ayrı-ayrı istiqamətlər üzrə işçi qruplarının yaradılması məsələləri müzakirə edilib.

Həmçinin iclasda hədəf qrupları ilə əlaqələrin gücləndirilməsi, ictimai müzakirələrin təşkili və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda İctimai Şuranın reqlamenti, qurumun Tədbirlər Planı səsə qoyularaq qəbul edilib, eyni zamanda işçi qrupları yaradılıb.